## Körpə şəhidlərə layla

**Şəhidlər arasında 13 yaşlı İlqar İbrahimovla Larisa Məmmədova da uyuyurlar...**

Sizə necə oğlum deyim,
Sizə necə qızım deyim,
Ürəyimdə yer tapmayan
Güllələnmiş arzum deyim...
Sizə necə körpəm deyim,
Sizə necə balam deyim...
Ürəyimdən bir səs keçir:
Yanınızda olan deyim,
yanınızda qalam deyim...

Layla dedim yatasınız,
Qızılgülə batasınız.
Necə deyim... necə deyim,
Güllələnib arzularım,
Güllələrin kölgəsində
Arzunuza çatasınız...

Yastığınız yumşaq olsun,
Yuxunuz ağ, dümağ olsun.
Deməm təksiz, tənhasınız,
Hayanınız torpaq olsun.

Əlində gül tutanlarım,
Gülləyə gül atanlarım,
Bizi ayıq-sayıq edib
Torpaq altda yatanlarım...

Hələ körpə çiçəkdiniz,
Arzu dolu ürəkdiniz!
Ata-ana sinəsində
Pardaqlanmış diləkdiniz!
Dilim gəlmir layla deyim,
Layla deyim?
Kədər deyim?!

Sizə necə ağı deyim?
Bizi duymur yağı-deyim?
Hamımızın köksündədir
Bu şəhidlik dağı deyim,

Gözlərimdən axan yaşdı,

Düşmənlərin qəlbi daşdı,
Torpaq, üşütmə onları-
Bir bacıdı, bir qardaşdı...

Gül verirəm, almırsınız,
Gülə nəzər salmırsınız...
Yanınızda duyun bizi,
Demə tənha qalmısınız...

Yanaqlarım yaşdı, neylim,
Yağı yenə başdı, neylim,
Sizsiz necə yaşayıram
Demə ürək daşdı, neylim...

Uşaqlara güllü yazdım,
Nəğmə deyən telli sazdım...
Sın, qələmim, bu nə gündü,
Balalara ağı yazdım...

Bir ümid var solan deyil,
Düşmən zəfər çalan deyil!
Qəbrinizə and içirik:
Bu qan yerdə qalan deyil!

31 yanvar 1990.

Namaz M. Körpə şəhidlərə layla : şeir // Ulduz. - 1991. - № 1. - S. 29.